**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ** **"Təsdiq edirəm"**

**PSİXİATRİYA**
fənni üzrə

ATU-nin psixiatriya
kafedrasının müdiri
prof. Gəraybəyli G.Ç.

**İŞÇİ TƏDRİS PROQRAMI**
**(SİLLABUS)**

**imza: ________________**
**22.06.2021-ci il**

**Hərbi tibb fakültəsi**

**FƏNNİN KODU:**

**FƏNNİN NÖVÜ:** məcburi

**FƏNNİN TƏDRİS SEMESTRİ:** P - 10

**FƏNNİN KREDİTİ:** 5 kredit

**FƏNNİN TƏDRİS FORMASİ:** Əyani

**FƏNNİN TƏDRİS DİLİ:** Azərbaycan dili

**FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİMLƏR:**

prof. B.Əsədov
prof. Z.Əliyev
dos. Manuçeri-Lalei A.Ə.
ass. Hacıyev S.R.
ass. Salmanzadə B.
ass. Abdullayev X.A.
ass. Vahabov N.E.
ass. Rüstəmov İ.R.
ass. Hüseynbəyli E.Y.
ass. Zeynalov Ə.E.

**KAFEDRANIN ƏLAQƏ NÖMRƏLƏRİ:** (012) 440 – 15 -70

**E-MAİL:** **department_psychiatry@amu.edu.az**

**PREREKVİZİTLƏR:**

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur

**KOREKVİZİTLƏR:**

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədrisi olunması zərurəti yoxdur

**KURSUN TƏSVİRİ:**

Tədris olunan fəndə stomatologiya fakültəsinin tələbələrinə müasir dövrdə sürətlə inkişaf edən psixiatriya elminin əsaslarını tədris olunur. Psixiatriyanın özünə məxsus tədqiqat üsulları, diaqnostika metodları və müxtəlif müalicə taktikası sistemi vardır. Psixiatriya ümumi psixopatologiya və xüsusi psixiatriya hissələrindən ibarətdir. Ümumi psixopatologiya qavrama, yaddaş, intellekt, təfəkkür, emosiya (təəssürat sferası), meyllər, diqqət, hərəkət və düşüncə psixi sferaların xüsusiyyətlərinin və pozuntularını öyrənir. Psixi xəstələrə qulluq, psixi xəstələrin aqressiv və autoaqressiv (intihar) davranış formalarını aradan qaldırılması tədris olunan fəndə xüsusi əhəmiyyət kəsb edir.

Xüsusi psixiatriya bölməsi isə müasir Psixi Xəstəliklərin Təsnifatına uyğun olaraq, ayrı-ayrı nozoloji vahidlərin öyrənməsinə yönəlmişdir. Şızofreniya və şizoaffektiv pozuntuların, affektiv pozuntuları (müasir dövr üçün xüsusi aktuallıq daşıyan – depressiv pozuntuları), baş beynin üzvi xəstəlikləri, o cümlədən, epilepsiya xəstəliklərinin təhlilinə xüsusi yer verilmişdir. Hər bir cəmiyyət üçün aktual olan psixoaktiv maddələrin, o cümlədən alkoqolizm və narkomaniyanın diaqnostikası və müalicə məsələləri də tədris olunan fənnin proqramında öz əksini tapmışdılar. Son illər artmaqda olan, stresslə bağlı olan psixi pozuntuların (psixogeniyalar, böhranlı və fövqəladə vəziyyətlər), həmçinin digər somatik xəstəliklər zamanı yanaşı keçən psixi pozuntuların klinikası, diaqnostikası, müalicə və profikaktikasının öyrənməsinə xüsusi diqqət yetirilir.

**KURSUN MƏQSƏDİ:**

Tələbələrdə psixiatriyaya dair müstəqil elmi və praktik əsasların olması haqqında tam təsəvvür yaratmaq, həmçinin psixi xəstəliklərin profilaktikası, erkən diaqnostikası, müasir müalicə növləri və üsullarının tətbiqinə göstəriş və əks-göstəriş təyini, psixiatriya və psixososial reabilitasiya xidmətinin təşkili, psixi xəstələrin psixiatrlara vaxtında

istiqamətləndirilməsi məsələlərinin öyrədilməsindən ibarətdir. Baş beyinin anatomik strukturlarının funksional əhəmiyyəti**.**

**KURSUN NƏTİCƏLƏRİ:**

Təqdim olunan fənn tədris olunub qurtaqdıqdan sonra tələbələr psixi fəaliyyətin əsas psixi sferaların xüsusiyyətlərini və pozuntularını, psixi xəstələrin müayinə metodlarını bilməli, əsas psixi xəstəliklərinin klinikası, diaqnostikası, müalicə və profilaktikası haqqında bazis bilikləri əldə etməlidirlər.

**QEYD:**

Semestr ərzində minimum 34 bal, imtahanda minimum 17 bal toplanmalı. İmtahanda və imtahana qədər toplanan ballar cəmlənir və yekun miqdarı aşağıdakı kimi qiymətləndirilir:

A - "Əla" - 91 – 100

B - "Çox yaxşi" - 81 – 90

C - "Yaxşı" - 71 - 80

D - "Kafi" - 61 - 70

E - "Qənaətbəxş" - 51 – 60

F - "Qeyri-kafi" - 51 baldan aşağı

**SƏRBƏST İŞ:**

Semestr üzrə 10 sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirməsi 1 balla qiymətləndirilir.

Sərbəst iş yazılı formada, word faylı formatında, həcmi 1 – 2 səhifə (şrift 12) olmalıdır.

| № | Mövzular | Son tarix |
|---|---|---|
| 1 | Xüsusi vəziyyətli xəstələrlə kliniki müsahibə (Sayıqlayan, erotik, aqressiv, suisidal pasiyentlər). | 13 həftə |
| 2 | "Psixiatriya yardımı haqqında" AR qanunu.Əsas prinsipləri. | 13 həftə |

| | | |
|---|---|---|
| 3 | Məhkəmə psixiatriya ekspertizası.(“Psixiatriya yardımı haqqında” qanun).Məcburi müalicə. | 13 həftə |
| 4 | Psixiatriya stasionarına yerləşdirmək üçün əsaslar və stasionar müalicənin əsas prinsipləri.(“Psixiatriya yardımı haqqında” qanun). | 13 həftə |
| 5 | Affekt.Patoloji və fizioloji affekt. | 13 həftə |
| 6 | Nevrotik sindromlar. | 13 həftə |
| 7 | Şəxsiyyətin dəyişməsi sindromu. | 13 həftə |
| 8 | Dissosiativ-konversion sindrom.Kliniki formaları. | 13 həftə |
| 9 | Depressiv sindrom. | 13 həftə |
| 10 | Aqressiya və suisid.Suisidal davranış | 13 həftə |

Son tarixdən sonra təqdim olunan sərbəst işlər səbəbindən asılı olmayaraq nəzərə alınmayacaqdır.

Sərbəst işlərin nəticələri jurnalda yazılır.

**FƏNNİN MÖVZULARI:**

1. Şizofreniya, simptomları, etiologiya, patogenez klinik formaları, gediş tipləri farmakoterapiyası.
2. Şizotipik pozuntu, xroniki sayıqlama pozuntusu, şizoaffektiv pozuntu, kəskin və keçici psixotik pozuntular.
3. Affektiv pozuntular.Bipolyar affektiv pozuntular.Rekkurent depressiya.Tsiklotimiya, distimiya.
4. Psixi pozuntularla ifadə olunan baş-beyin üzvi xəstəliklər.Epilepsiya.Kəllə-beyin zədələnməsi nəticəsində yaranan psixi pozuntular.
5. Baş-beyin damarlarının sklerozu ilə əlaqədar yaranan psixi pozuntular.
6. Geriyə inkişaf və qocalıq dövründə meydana çıxan psixi pozuntular.

7. İnfeksion psixozlar zamanı psixi pozuntular.Neyroinfeksiyalar.
8. Somatik və endokrin xəstəliklər zamanı yaranan psixi pozuntular.
9. Psixoaktiv maddələrin qəbulu nəticəsində psixi və davranış pozuntuları.Alkoqolizm. Narkomaniya.
10. Nevrotik, stresslə əlaqədar və somatoform pozuntular.
11. Şəxsiyyət pozuntusu.
12. Erkən və yeniyetmə yaşlarında psixi pozuntular.
13. Oliqofreniya.
14. Psixi xəstəliklərin müalicə prinsipləri.
15. Psixoterapiya
16. Psixi xəstəliklərin təsnifat prinsipləri.Psixiatriyanın ümumi problemləri,hüquqi aspektləri.
17. Psixi xəstələrin müayinəsi.Psixodiaqnostik sınaqlar.
18. Psixi pozuntuların neyrobioloji aspektləri.
19. Produktiv və difisator simptomlar anlayışı.
20. Qavramanın psixofiziologiyası, qavrama pozuntuları.
21. Yaddaş və intellekt pozulmaları.
22. Təfəkkür, psixofiziologiyası. Təfəkkürün pozuntuları.
23. Təəsüratın psixofiziologiyası. Affektiv sferanın pozuntuları.
24. İradə və meyllərin pozuntuları.
25. Diqqət pozuntuları.
26. Düşüncənin psixofiziologiyası. Düşüncənin pozuntuları.
27. Psixopatoloji sindromlar.

**FƏNNİN MÜHAZİRƏ MƏTNLƏR:**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnlər və nümunəvi testləri elektron formada hazırlanıb və universitetinin virtual test mərkəzinə təhvil verilmişdir.

**QİYMƏTLƏNDİRMƏ:**

Fənn üzrə kredit toplamaq üçün lazımı 100 balın toplanması aşağıdakı kimi olacaq.

50 bal – imtahana gedər

O cümlədən:

10 bal – dərsə davamiyyət

10 bal – sərbəst iş

30 bal – seminar dərslərindən toplanacaq ballardır.

Semest ərzində 3 dəfə sorğu keçiriləcəkdir (minimum 3). Sorğuda iştirak etmədikdə jurnalda 0 (sıfır) bal qeyd olunacaqdır.

50 bal – imtahanda toplanmalı.

İmtahan test üsulları ilə keçiriləcəkdir. Test 50 sualdan ibarət olacaqdır. Hər bir sual bir baldır. 4 səhv cavab 1 düzgün cavabı silir.

**ƏDƏBİYYAT VƏ MATERİALLAR:**


1. N.V.İsmayılov "Psixiatriya", Bakı, 2013
2. N.V.İsmayılov, F.N.İsmayılov , "Tibbi psixologiya və psixoterapiya", 2002
3. G.Ç.Gəraybəyli, Z.F. Musabəyov, N.N. Eldarova, G.N.Musabəyova "Psixiatriya" (dərs vəsaiti), 2019
4. G.Ç.Gəraybəyli, M.Sultanov, R.Qəmərlinski "İntarpersonal Psixoterapiya", Bakı, 2010
5. N.Ə.Əliyev, Z.N.Əliyev "Ümumi psixopotologiya", 2019


**KURS İŞİ:**

Bu fənn üzrə kurs işi nəzərdə tutulmur.

**TƏCRÜBƏ:**

Bu fənn üzrə istehsalat təcrübəsi nəzərdə tutulmur.

**Hazırladı:** **dos. Katibli S.Ə.**